

# Müstəqil dövlət, siyasət

## Ölkəmizdə əldə olunan nailiyyətlər bu formulun doğru olduğunu nümayiş etdirir

*Azərbaycanı beynəlxalq münasibətlər sistemində səciyyələndirən əsas cəhətlərdən biri ölkəmizin milli mənafeyə əsaslanan müstəqil xarici siyasət yürütməsidir. Ardıcıllıqla həyata keçirilən uğurlu xarici siyasət Prezident İlham Əliyevin müəyyənləşdirdiyi belə bir fundamental amilə əsaslanır ki, ölkələr, xalqlar arasında münasibətlər və müxtəlif əməkdaşlıq formatları bərabərlik və qarşılıqlı faydalılıq kimi prinsiplər əsasında qurulmalıdır.*

Azərbaycan da özünün xarici siyasətində məhz bu mövqedən çıxış edərək regional və qlobal əməkdaşlığa, dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir. Prezident İlham Əliyev ölkəmizin xarici siyasətinin prioritetlərini xatırladaraq vurğulayır ki, biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq: "...Bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur".

Müstəqil xarici siyasət Azərbaycanın regional və qlobal miqyasda nüfuzlu aktora çevrilməsini təmin edib. Davamlı olaraq həyata keçirilən bu siyasət, ölkələrin, xalqların yaxınlaşması naminə göstərilən səylər bütün dünyada respublikamıza böyük hörmət qazandırıb.

(davamı 8-ci səhifədə)

# Müstəqil dövlət, siyasət

(əvvəli 1-ci səhifədə)

Müstəqillik tarixində əldə edilən ən böyük uğurlardan biri ölkəmizin beynəlxalq imicinin əhəmiyyətli dərəcədə artmasıdır. Müasir müstəqil Azərbaycan məfhumu yürüdülən siyasətin əsas prinsiplərini ehtiva edir. Azərbaycan müasirliyə, təkmilləşməyə açıq, bir sözlə, innovasiyalar ölkəsi kimi də tanınır və nüfuz qazanır.

Hazırkı dövrdə dünya siyasətində dəyişikliklərin baş verdiyi, bəzən ədalətə, bəzən də ikili standartlara əsaslanan yanaşmaların müşahidə olunduğu bir dövrdə Azərbaycanın müstəqil siyasəti yürütməsi, dəyişməz mövqeyindən bir addım da belə geri çəkilməməsi diqqəti daha çox cəlb edir. Ölkəmiz xarici siyasi əlaqələrini, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir, enerji sahəsində əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

Vətən müharibəsi ölkənin ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm də regionda qüvvələr balansının yeni konfiqurasiyasını formalaşdırdı. Azərbaycan Ermənistanın 30 il davam edən işğalına son qoymaqla Cənubi Qafqazda əsl söz sahibi olduğunu dünyaya nümayiş etdirdi. İqtisadi və sosial sahədə aparılan ardıcıl, sistemli islahatlar qısa müddət ərzində ölkənin iqtisadi imkanlarının xeyli dərəcədə genişləndirilməsinə, uğurlu sosial dövlət modelinin qurulmasına imkan yaratdı. Bu gün Azərbaycan vətəndaşı güclü orduya, beynəlxalq aləmdə layiq olduğu siyasi nüfuza, dayanıqlı iqtisadiyyata sahib qalib ölkənin vətəndaşıdır. Bu reallığı yaratmaq üçün Azərbaycan uzun, bəzi məqamlarda çətin yol keçməli oldu. Lakin ölkə başçımızın liderliyi, müdrikliyi, uzaqgörənliyi, tarixi prosesləri düzgün qiymətləndirmək bacarığı bütün çətinliklərin öhdəsindən uğurla gəlməyə imkan yaratdı.

Bu tarixi qələbənin əsas müəllifi ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirərək qısa müddətdə güclü dövlət və qüdrətli ordu yaratmağa müvəffəq olmuş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. "Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır". Bu fikirləri Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibəsində bildirib.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi qlobal əhəmiyyətli layihələrdə fəal iştirak etməklə özünü Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən biri kimi təsdiq edib. Müasir dövrdə dünya siyasətində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda beynəlxalq münasibətlər sistemi olduqca mürəkkəb xarakterə malikdir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən xarici siyasət kursunun səmərəliliyindən asılıdır. Səmərəli və praqmatik xarici siyasət kursu milli maraqları təmin etməklə yanaşı, yeni perspektivlərin yaranmasını da şərtləndirir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitlik və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın təcrübəsi unikal, mütərəqqi nümunə kimi çıxış edir.




***Ölkəmizdə əldə olunan nailiyyətlər bu formulun doğru olduğunu nümayiş etdirir***

Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Ölkəmiz konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq sistemin aparıcı dövlətləri və güc mərkəzləri üçün də strateji əhəmiyyət daşıyır. Dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanın Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər.

Azərbaycanın beynəlxalq müstəvidə yeri və rolunu xarakterizə edən ekspertlər, analitik mərkəzlər ölkəmizin beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi çıxış etdiyini də diqqətə çatdırırlar. Ölkəmiz yeni geosiyasi şəraitdə sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu kontekstdə Azərbaycan qlobal və regional səviyyəli tədbirlərə ev sahibliyi edən, bütün dünyanın diqqət mərkəzində olan mühüm məsələlərin müzakirə olunduğu siyasi, iqtisadi və humanitar mərkəz kimi qəbul olunur. Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər mühüm tədbirlər məhz Azərbaycanda keçirilir. Bu və digər faktlar Azərbaycanın yüksək nüfuzunu əks etdirir.

Prezident İlham Əliyevin Azərbaycanın Çin, Türk dövlətləri və Avropa İttifaqının üzləri ilə əlaqələri barədə söylədiyi fikirlər ölkəmizin uğurlu xarici siyasət kursu ilə bağlı təsəvvürləri daha da möhkəmləndirir. Azərbaycanla Avropa İttifaqının 10 üzvü arasında strateji tərəfdaşlıq bəyannaməsi mövcuddur. Eyni zamanda, respublikamız Türkiyə, Özbəkistan və Rusiya ilə də müttəfiqlik bəyannamələri imzalayıb. Tarazlaşdırılmış, çoxvektorlu və praqmatik xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini təmin edib. Reallıq budur ki, regional güc mərkəzi olan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır. Prezident İlham Əliyev bildirib: "Düşünürəm ki, Azərbaycan təcrübəsi, bizim əldə etdiyimiz nəticələr siyasətimizin doğru olduğunu nümayiş etdirir".

Çağdaş dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin və beynəlxalq münasibətlər sisteminin durumunu xarakterizə edərkən ən çox maliyyə-iqtisadi və siyasi böhran hallarına rast gəlinir. Xüsusilə də, ayrı-ayrı regionlarda konfliktlər, müharibələr qlobal kataklizmlərin mövcudluğundan xəbər verir. Dünya siyasətinin gələcəyinə təsir edən iqtisadi böhran siyasi kataklizmlərin dərinləşməsini şərtləndirir ki, bu da nəticə etibarilə həm inteqrasiya və əməkdaşlığı zəiflədir, həm də siyasi münasibətlərdə etimadsızlıq mühitinin, ziddiyyətlərin artmasına səbəb olur. Belə olan şəraitdə milli dövlətlərin səmərəli və praqmatik xarici siyasət həyata keçirməsi strateji zərurət kimi çıxış edir. Azərbaycan məhz səmərəli xarici siyasət həyata keçirərək öz beynəlxalq mövqeyini möhkəmləndirən, eləcə də regional sabitlik, təhlükəsizlik və əməkdaşlığa strateji töhfələr verən ölkələrdəndir.

Səmərəli və məqsədyönlü strateji kurs ölkəmizin daxili vəziyyətinə də müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycan beynəlxalq miqyasda sabitlik adası kimi və özünəməxsus inkişaf modelinə malik dinamik inkişaf edən ölkə olaraq tanınır. Ekspertlərin də qeyd etdikləri kimi, səmərəli daxili və xarici siyasət bu bariz reallığı şərtləndirir. Yəni, ayrı-ayrı regionlarda ciddi siyasi kataklizmlərin, dağıdıcılıq meyillərinin, böhran və tənəzzül hallarının mövcud olmasına, hətta şiddətlənməsinə baxmayaraq, Azərbaycan sabitlik adası kimi inamlı inkişafını davam etdirir, tərəqqi yolunda əmin addımlarla irəliləyərək yeni zirvələr fəth edir. Milli mənafeyə əsaslanan müstəqil strateji kurs Azərbaycanın ən mühüm üstünlüklərindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasət Azərbaycanın beynəlxalq müstəvidə öz maraqlarını qətiyyətlə müdafiəsini təmin edir, respublikamızın nüfuzunun daha da artmasını şərtləndirir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 18 iyun (№ 123).- S.1;8.